## XATİRƏSİNİN ƏBƏDİLƏŞDİRİLMƏSİ

### BDU-nun Jurnalistika fakültəsinin Mətbuat tarixi kafedrasının qarşısında barelyefi




Bakı Dövlət Universitetinin (BDU) professoru, görkəmli alim və mətbuat tədqiqatçısı, Əməkdar jurnalist Şirməmməd Hüseynovun anadan olmasının 95-ci ildönümü münasibətlə 2019-cu ildə BDU-nun Jurnalistika fakültəsinin Mətbuat tarixi kafedrasının qarşısında barelyefi açılıb.

Rektor Elçin Babayev çıxış edərək Azərbaycan mətbuat tarixinin yorulmaz tədqiqatçısı, müasir jurnalistikamızın inkişafında misilsiz xidmətləri olan Şirməmməd Hüseynovun zəngin yaradıcılıq yolundan danışıb. Alimin həyatının böyük hissəsinin Universitetlə bağlı olduğunu bildirən E.Babayev gənc jurnalistlərin yetişməsində, püxtələşməsində böyük xidmətləri olan Şirməmməd Hüseynovun elmi-pedaqoji fəaliyyətini ləyaqətlə, vicdanla, yorulmadan davam etdirdiyini diqqətə çatdırıb. Bildirib ki, bu gün Şirməmməd müəllimin uzun illər çalışdığı kafedranın qarşısında onun barelyefini açırıq. Hər dəfə bu barelyefi görərkən biz onu yenidən yad edəcəyik. Daim örnək həyat sürən Şirməmməd müəllimin cəmiyyətimiz üçün nümunəvi övladlar yetişdirdiyini qeyd edən rektor hazırda alimin qızlarının Azərbaycan elminin, mədəniyyətinin inkişafı yolunda səylə çalışdıqlarını diqqətə çatdırıb.



Qeyd edib ki, bu gün Şirməmməd müəllimin ruhu bizimlədir. Biz də bu gün böyük alim qarşısında qismən də olsa, mənəvi borcumuzu yerinə yetirməyə çalışdıq.



Şirməmməd Hüseynovun ömür-gün yoldaşı, “Elm və həyat” jurnalının redaktor müavini Ülkər Hüseynova görülən işə görə minnətdarlığını bildirib. Vurğulayıb ki, əsl alim üçün bundan böyük xoşbəxtlik ola bilməz. Bir daha şahidi oldum ki, Şirməmməd müəllimin çoxlu müridləri var. Dərs dediyi, hətta dərs demədiyi tələbələr onu çox sevir. Mən onların xatirələrini oxuyanda çox kövrəlirəm. Həqiqətən həyatda iz salan insanlar varmış və mən bunun canlı şahidiyəm. Şirməmməd Hüseynov düz 74 il Bakı Dövlət Universitetində çalışıb, bu heç də hər kəsə nəsib olan xoşbəxtlik deyil. O, ömrünün son gününə qədər işdən ayrılmadı. Onu xatirəsini belə sevinclə, məhəbbətlə yad etdiyinizə görə hamınıza təşəkkür edirəm.

## “Şirməmməd Hüseynov mükafatı”




“Şirməmməd Hüseynov mükafatı” ilə bağlı qərar Parlament Jurnalistləri Birlyinin İdarə Heyəti tərəfindən 12 noyabr 2019-cu il tarixində qəbul edilib. Mükafatın Əsasnaməsində qeyd olunur ki, “Şirməmməd Hüseynov mükafatı”nın məqsədi jurnalistika sahəsində xidmətləri olan şəxslərin fəaliyyətini dəyərləndirmək, jurnalistikanın cəmiyyət həyatındakı rolunun artırılmasını stimullaşdırmaqdan ibarətdir. “Şirməmməd Hüseynov mükafatı” fəaliyyəti və yaradıcılığı ilə jurnalistikanın inkişafında yüksək xidmətləri olmuş, jurnalistikanın tədrisi sahəsində mühüm nailiyyətlər əldə etmiş şəxslərə, peşə prinsiplərinə riayət etməsi ilə fərqlənən jurnalistlərə, ziyalılara verilir. Ancaq Şirməmməd müəllimin adına təsis edilən mükafat yalnız ölkəmizin hüdudlarını əhatə etməyəcək.

2020-ci ildə “Şirməmməd Hüseynov mükafatı”nın qalibi diplomat, araşdımaçı alim, diaspor fəalı Ramiz Abutalıbov, 2021-ci ildə Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva, 2022-ci ildə Azərbaycanın Bosniya və Herseqovinada fövqəladə və səlahiyyətli səfiri Vilayət Quliyev, 2023-cü ildə isə Əməkdar rəssam, Azərbaycan Prezidentinin fərdi təqaüdçüsü Rais Rəsulzadə “Şirməmməd Hüseynov mükafatı”nın qalibi olub.

## “Temrin” dərgisinin Şirməmməd Hüseynova həsr olunmuş xüsusi sayı




Dekabrın 17-si filologiya elmləri doktoru, mətbuat xadimi, Əməkdar jurnalist, professor Şirməmməd Hüseynovun (1924–2019) anadan olmasının 97-ci ildönümü ilə əlaqədar Türkiyədə nəşr olunan “Temrin” dərgisinin növbəti nömrəsi görkəmli alim, pedaqoq, ustad jurnalist Şirməmməd Hüseynova həsr edilib.

“Azərbaycan qəzetəçiliyinin duayeni Şirməmməd Hüseynov” adlı xüsusi nömrə Şirməmməd Hüseynovun vəfatı ilə bağlı Prezident İlham Əliyevin imzaladığı nekroloqdan “Görkəmli alim, pedaqoq və publisist, əsl ziyalı Şirməmməd Ağaməmməd oğlu Hüseynovun əziz xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaqdır...” sözləri ilə başlayır.

Dərgidə alimin tərcümeyi-halı, aforizmə çevrilmiş bəzi deyimləri, ölkənin tanınmış alim və ictimai xadimləri, söz adamları, Şirməmməd müəllimin həmkarları və tələbələrinin məqalə və rəyləri yer alır.

Milli Məclisin deputatları – akademik Rafael Hüseynovun "Ustada vida", fəlsəfə doktoru Cavanşir Feyziyevin "Şirməmməd Hüseynov zirvəsi", Bakı Dövlət Universitetinin rektoru Elçin Babayevin "Həqiqət və ləyaqət simvolu", professor Cahangir Məmmədlinin "Ömrümüzün Şirməmməd Hüseynov təsəllisi", professor Alxan Bayramoğlunun "Riyaziyyatçı jurnalist", dosent-doktor Könül Niftəliyevanın "Milli tariximizin istiqlal səhifələri", tanınmış jurnalist Hikmət Sabiroğlunun "Şirməmməd müəllimin dərsləri" və başqa məqalələr Şirməmməd Hüseynovun şərəfli ömür yoluna işıq tutur, onu Türkiyənin akademik dairələrinə yaxından tanıdır.

Nəşrdə Xalq şairi Bəxtiyar Vahabzadə, Xalq yazıçıları Anar, Afaq Məsud, mərhum akademiklər Vasim Məmmədəliyev, Bəkir Nəbiyev, Milli Məclisin deputatları Fazil Mustafa, Aqil Abbas, ictimai xadim Ramiz Abutalıbov, akademik Muxtar Kazımoğlu, professorlar Qulu Məhərrəmli, Tofiq Köçərli, Nəsiman Yaqublu, Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov və başqalarının Şirməmməd Hüseynov haqqında xatirə və fikirləri də yer alıb.

Yazılar Şirməmməd müəllimin həyatının müxtəlif dönəmlərini əks etdirən fotolarla müşayiət olunur. Nəşrdə Şirməmməd Hüseynovun uzun müddət yaxın dostluq etdiyi Bəxtiyar Vahabzadənin ona həsr etdiyi şeiri verilib. Xalq şairi Şirməmməd Hüseynov haqqında səmimi duyğularını belə ifadə etmişdi:

Şirməmməd – əxlaqın, haqqın öz səsi,

Ləyaqət, dəyanət mücəssəməsi!

"Temrin" dərgisinin "Şirməmməd Hüseynov" xüsusi sayına daxil edilmiş mətnlərin Türkiyə türkcəsinə Əbdülqədir Özkan uyğunlaşdırılıb, buraxılışın koordinatoru jurnalist Bəxtiyar Səlimovdur.